# Azərbaycan Milli Məclisi ilə Gürcüstan parlamenti arasında əməkdaşlıq haqqında memorandum imzalanıb







**Milli Məclisin Sədri Sahibə Qafarovanın Gürcüstana rəsmi səfəri çərçivəsində iki ölkənin qanunverici orqanları arasında əməkdaşlıq haqqında memorandumun imzalanması mərasimi keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, sənədi Milli Məclisin Sədri Sahibə Qafarova və Gürcüstan parlamentinin Sədri Şalva Papuaşvili imzalayıblar.

Qeyd olunub ki, bu sənəd qanunverici orqanlar arasında münasibətlərin dərinləşməsinə, əməkdaşlığın daha da genişlənməsinə töhfə verəcək.

*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 11 mart (№ 53).- S.3.